## SUALLAR – Maddə 5 § 1 (a)-(f)

**Sual 1: Konvensiyanın 5-ci maddəsinin 1 (a) yarımbəndi ilə nəzərdə tutulan səlahiyyətli məhkəmə dedikdə hansı orqanlar başa düşülür?**

a) Qanunlarla həbs qərarı qəbul etmək səlahiyyətinə malik istənilən inzibati orqanlar;

b) Azad etmə səlahiyyətinə malik müstəqil məhkəmələr

c) (a) və (b) bəndlərinin hər ikisi

**Sual 2: Konvensiyanın 5-ci maddəsinin 1(c) yarımbəndi ilə nəzərdə tutulan "tutulma" anlayışı ilə bağlı düzgün varianti seçin:**

a) Milli qanunvericiliklə müəyyən edilmiş anlayışla eynidir

b) Milli qanunvericiliklə müəyyən edilmiş anlayışla eynidir, lakin prokuror həbsə səlahiyyət verdiyi təqdirdə, 5-ci Maddənin məqsədləri baxımından tətbiq olunur

c) Milli qanunvericilikdə müəyyən edilmiş anlayışla eyni olması mütləq deyil, "tutulma" cinayət törətməkdə şübhəli bilinən şəxsin həbsi ilə bağlı edilən ilkin hərəkətdir.

**Sual 3: Konvensiyanın 5-ci maddəsinin 1 (c) yarımbəndi ilə nəzərdə tutulan "əsaslı şübhə" anlayışı ilə bağlı düzgün varianti seçin:**

a) Terror cinayətləri ilə əlaqədar şəxsin tutulmasına haqq qazandıran şübhənin əsaslılığı məsələsində heç də həmişə adi cinayət zamanı tətbiq edilən standartlarla eyni əsasda mülahizə yürütmək olmaz

b) polis əməkdaşının şəxsin təqsirli olduğuna vicdanla inandığı hal

c) hətta anonim şəxsin ifadəsi nəticəsində yaranan və ya polis əməkdaşının vicdanla inandığı şayiələrə əsaslanan istənilən şübhə

**Sual 4: Konvensiyanın 5.1 (d) yarımbəndi ilə nəzərdə tutulan "tərbiyə nəzarəti" məqsədilə qəbul edilmiş qərar hansı orqan tərəfindən verilə bilər?**

a) milli qanunvericilikdə buna hüququ olan hər hansı bir səlahiyyətli orqan tərəfindən

b) yalnız xüsusi yurisdiksiyaya malik məhkəmələr tərəfindən

c) istənilən rəsmi şəxs tərəfindən

**Sual 5: Aşağıdakılardan hansı doğrudur:**

a) "alkoqolizmə mübtəla olanlar"termini yalnız klinik diaqnozu olan şəxslərə aiddir

b) AİHK-də qeyd olunan "Səfil" anlayışı hər hansı bir milli qanunvericilikdə nəzərdə tutulmuş anlayışdan çox fərqlidir

c) AİHK-nın Maddə 5.1(e) yarımbəndi altında həbsin qanuniliyi məsələsi araşdırılarkən həbsin qanuniliyinə baxan yerli məhkəmənin azadlığa buraxmaq barədə qərar vermək səlahiyyəti olmalıdır.

**Sual 6: Dövlət orqanları tərəfindən "ruhi xəstə" olduğu iddia edilən istənilən şəxsin həbsi AİHK maddə 5.1 (e) yarımbəndi altında həbsə daxildir.**

a) Doğrudur, çünki Məhkəmə dövlət orqanları tərəfindən qoyulan yalnız tibbi diaqnoza əsaslanaraq həbsin qanuniliyi məsələsinə baxır

b) Doğru deyil, çünki Məhkəmə dövlət orqanları tərəfindən qoyulan təkcə tibbi diaqnozu əsas götürmür

**Sual 7: "Yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması məqsədi ilə" həbs yalnız o zaman qanuni ola bilər ki:**

a) yoluxucu xəstəliyin yayılması əhalinin sağlamlığı və təhlükəsizliyi üçün təhlükə təşkil edib-etməməsini və daha yüngül tədbirlərin ictimai marağın qorunması üçün yetərli olub-olmamasını qiymətləndirdikdən sonra infeksiyaya yoluxmuş şəxsin həbsi xəstəliyin yayılmasının qarşısının alınması üçün son çarə olduğu zaman

b) yoluxucu xəstəliyin yayılması əhalinin sağlamlığı və təhlükəsizliyi üçün təhlükə təşkil edən zaman

c) yoluxucu xəstəliyin yayılması əhalinin sağlamlığı və təhlükəsizliyi üçün təhlükə təşkil edən zaman və dövlət və ictimai marağın qorunması üçün şəxsin həbs olunmasına bəraət qazandırılır.

**Sual 8. Hansı şərtlərin kombinasiyası 5-ci maddənin 1-ci bəndinin "f" yarımbəndi ilə nəzərdə tutulan tutulmanı/həbsi qanuni edir?**

| | | |
|---|---|---|
| 1) həbs vicdanlı niyyətlə həyata keçirilibsə | 2) həbsdə saxlanma müddəti həbsin məqsədinin tələb etdiyi müddətdən çoxdursa | 3) şəxs ölkəyə qanuni şəkildə gəlmiş və ya ona sığınacaq hüququ verilmişsə |
| 4) yalnız şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə həyata keçirilibsə | 5) həbsdə saxlanma müddəti həbsin məqsədinin tələb etdiyi müddətdən çox deyilsə. | 6) Əgər şəxs həyatına təhlükələr olduğu üçün öz ölkəsindən qaçdıqdan sonra tutulubsa və onun saxlandığı yer və saxlanma şəraiti barədə qərar verərkən bu məlumat nəzərə alınıbsa |

**Sual 9: AIHK-nın 5.1 (f) yarımbəndi altında həbsdə qalma müddətinin qanuniliyi dedikdə Məhkəmə hansı meyarları nəzərə alır**

a) Şəxsin və dövlət orqanlarının davranışını
b) Şəxsin davranışını və işin mürəkkəbliyini
c) Yuxarıda göstərilənlərin hər biri

**Sual 10: Şəxsin deportasiya prosesi zamanı onun həbsdə saxlanılması qanunidir?**

*a)* Xeyr, şəxsin azadlıqda olması vacib amillərdən biridir

b) Bəli, ölkədən çıxarılma icraatları davam etməkdədirsə, şəxsin həbsi bu halda qanunidir

**Sual 11: Avropa Məhkəməsi hüquq pozuntusu törədilməsində əsaslı olaraq şübhəli bilinən şəxsin ibtidai həbs müddətinin uzadılmasını mümkün edən dörd səbəbi göstərmişdir:**

1) şəxsin gizlənməsi təhlükəsi; 2) iş üzrə həqiqətin aşkara çıxarılması prosesin şəxsin mane olması təhlükəsi; 3) Ağır cinayət törətməkdə şübhəli bilinməsi; 4) yeni cinayətlər törədilmə sinin qarşısının alınması zərurəti; 5) ictimai asayişin qorunması zərurəti; 6) şəxsin residivist olması

A) 1, 2, 4, 5 B) 2, 3, 4, 6 C) 1, 2, 4, 6 D) 3, 4, 5, 6

*Hazırladı: Günel Sadıqova*